Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Uşaq ədəbiyyatımızın cəfakeşi

**Şair Zahid Xəlilin 75 illik yubileyi münasibətilə
mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2017**

**Tərtibçi:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**Redaktor:** **Səməd Məlikzadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
**Əməkdar Mədəniyyət işçisi**

**Z. Xəlil-75. "Uşaq ədəbiyyatımızın cəfakeşi":**
metodik vəsait. Tərt.ed. Könül Səmədzadə; red. S.Məlikzadə;
ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına
Respublika Uşaq Kitabxanası.- Bakı, 2017.-28s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

# Tərtibçidən

Hər bir ölkənin gələcəyi böyüməkdə olan nəslin vətənpərvər, elmli və şüurca yetkin olmasından çox asılıdır. Belə insanların yetişdirilməsində isə uşaq ədəbiyyatının rolu böyükdür.

Son illərdə Azərbaycan uşaq ədəbiyyatı yeni-yeni əsərlərlə xeyli zənginləşmişdir. Sevimli şairimiz Zahid Xəlil klassik Azərbaycan uşaq ədəbiyyatının ən yaxşı ənənələrini qoruyub saxlamaqla yanaşı, onun nəsr qolunu müasir Qərb ədəbi ənənələri ilə zənginləşdirən və nəticə etibarilə orijinal sənət nümunəri yaradan yazardır. Qısaca desək, Z. Xəlilin yaradıcılığı uşaq ədəbiyyatımızın inkişafında yeni bir mərhələdir.

Bu il 75 illik yubileyi qeyd edilən Zahid Xəlilin yaradıcılığı ilə bağlı hazırladığımız **"Uşaq ədəbiyyatımızın cəfakeşi"** adlı metodiki vəsaiti sizlərin ixtiyarına veririk. Vəsaitdən uşaq, məktəb, lisey, kollec, gimnaziya və s. kitabxanaların əməkdaşları istifadə edə bilərlər.

# I Bölmə
# Həyat və yaradıcılığı

Son dövr ədəbiyyatımızda insanın daxili aləminə nüfuz edilməsi, macəra xarakterli əhvalatları hiss və düşüncələr axını əvəz etməsi müəyyən dərəcədə oxucuların mənəvi tələbatı ilə bağlıdır. Ötən əsrin yetmişinci illərinin ortalarında Azərbaycanda qələmini uşaq ədəbiyyatı sahəsində sınayan yeni müəlliflər meydana çıxdı. Onlardan biri də poetik nəfəsi yeni olan Zahid Xəlil idi.

Zahid Xəlil (Zahid Abdulla oğlu Xəlilov) 1942-ci ildə Yevlax şəhərində anadan olub. M. Ə. Sabir adına şəhər 2 saylı orta məktəbi bitirdikdən sonra Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə qəbul olunub. 1965-ci ildən isə Z. Xəlil "Qələbə" qəzetində ədəbi işçi, "Təşəbbüs" qəzetində məsul katib, "Gənc müəllim" qəzetində redaktor işləyib. Hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetində kafedra müdiri vəzifəsində çalışır.

Zahid Xəlil yaradıcılığa şeirlə başlayıb. İlk şeirini orta məktəbdə oxuyarkən yazıb. İlk şeirlərində sadəlik, səmimilik, müdriklik diqqəti daha çox cəlb edir. 1969-cu ildə onun "Uçan çıraqlar"adlı ilk şeirlər kitabı çap olunub. Bu topluda çoxlu maraqlı uşaq şeirləri oxuculara təqdim edilib. Zahid Xəlil şeirdən ayrılmadan nəsr əsərləri də yazır. Onun nağılvarı, fantastik povestləri - "Ballıca", "Çıraq nənənin nağılları", "Salam Cırtdan" yüksək bədii təfəkkürün məhsuludur. Bundan əlavə, Zahid Xəlil 1975-ci ildə filologiya elmləri namizədi, 1990-cı ildə filologiya elmləri doktoru, 1991-ci ildə isə professor adını almışdır.

Z. Xəlil, hər şeydən əvvəl, güclü uşaq yazıçılarından biridir. Onun uşaq ədəbiyyatına gəlişi və bu sahəyə gətirdiyi yeniliklər bugünkü Azərbaycan ədəbiyyatına xas olan bir xüsusiyyətdir. Bu mənada, yazıçının fərdi dəst-xətti, özünəməxsus bədii aləmi onu qələm dostlarından fərqləndirir.

Bu gün də Pedaqoji Universitetin auditoriyalarında tələbələrə mühazirələr oxuyan, ədəbiyyatın nəzəri və praktik məsələlərindən söhbət açan Zahid Xəlil bədii yaradıcılıq sirlərini öyrənmək istiqamətində yorulmadan tədqiqatlar aparır, poetik fikirlər sistemini araşdırır. Ömrünün ən qiymətli illərini müqəddəs işlərə sərf edən, üç sahənin sintezindən ərsəyə gələn, püxtələşmiş qələm sahibinə çevrilən Zahid Xəlilin tükənməz energiyə malik olması onun sonrakı yaradıcılıq imkanlarının genişliyindən və əldə edəcəyi uğurlardan xəbər verir. Bir qələm sahibi kimi Zahid Xəlil yaradıcılığının sirri olduqca sadədir. O, vətənə məhəbbət hissləri aşılayan əsərlər yazmağı daha üstün tutur, uşaqlara maraqlı görünən, həyat müşahidələrindən doğan mövzuları ədəbiyyata gətirir və orginal obrazlar silsiləsi yaratmağa çalışır.

Zahid Xəlil indiyədək çoxlu mənzum nağıl, poema, nəğmə mətnləri, yanıltmac və tapmacalar da yazıb. Bu əsərlər təkcə respublikamızda deyil, yaxın və uzaq ölkə oxucuları arasında da rəğbət qazanıb. Kitabları Moskvada, Çexiyada, Fransada, Almaniyada və başqa xarici ölkələrdə  çap olunaraq yayılıb.

Zahid Xəlilin bütün hekayələri özünün rəngarəngliyi, güclü bir yazıçı təxəllüyünün, fantaziyasının məhsulu olub, xeyir qüvvələri şərə qarşı qoyur. Onun "Literaturnaya qazeta"da çap olunaraq "Qızıl dana" mükafatı alan hekayələri  bu mənada diqqəti cəlb edir. Zahid Xəlilin kitablarına saf, təmiz uşaq aləminin gözəlliklərindən bəhs edilən şeirlər də daxildir. Bu şeirlərdə şair uşaqları təbiəti qorumağa, onun qədrini bilməyə çağırır. Onun "Cəh-cəh", "Kəklik", "Bülbül", "Qırqovul", "Hacıleylək", "Cüllüt" şeirləri fikrimizə yaxşı misaldır.

**Çöllər bahar həvəsiylə**
**Həzin-həzin səslənəndə,**
**Bir quş verdi torpağa hay.**
**Bunu görən başqa quşlar**
**Ona ad qoydu; "Torağay!"**

Zahid Xəlilin balaca oxucuların dilindən söylədiyi nağıllarda, şeirlərdə uşaq dünyasının kövrək qayğılarından söhbət açılır. Bu qayğılar çox vaxt həvəsdən doğulur, nəyəsə xidmət edir. Yalan danışmaq yaxşı hal deyil, lakin balaca qəhrəmanların dilindən söylənilən bu yalanlar şirinləşir, dadlı, duzlu olur.

**Gəlin yalan danışım,**
**Yalan-palan danışım.**
**Yalan-yalan içində,**
**Köhnə palan içində,**
**Ulağı çək qırağa,**
**Palanı qoy ulağa.**
**Çapaq Araz boyunca,**
**"Yalan deyək doyunca"**

"Doyunca" deyilən bu yalanlar isə əslində yalan deyil.

Zahid Xəlil uşaq psixologiyasını yaxından bilən yazıçılarımızdandır. Uşaqlar onun şeirlərini, hekayələrini çox tez qavrayırlar. Onu oxucularımıza sevdirən də məhz yazıçının bu xüsusiyyətidir. Uşaq ədəbiyyatını yüksək qiymətləndirən şairin uğurları da elə burdan doğur. Elə bu baxımdan da Zahid Xəlil uşaq ədəbiyyatını tədqiq edən beynəlxalq cəmiyyətin keçirdiyi simpoziumun iştirakçısı olub və sonralar bu təşkilata üzv seçilib. Sovetlər dövründə onun "Salam Cırtdan!" kitabı ümumittifaq müsabiqəsində birinci yerə layiq görülüb. "Cırtdanla Azmanın yeni sərgüzəştləri" adlı kitabı isə "Ən yaxşı uşaq kitabı" devizi altında keçirilən respublika müsabiqəsində ilk yeri qazanıb. Az bir müddət içərisində Zahid Xəlil Azərbaycan və rus oxucularının sevimli yazarına çevrilib.

Məhz bu baxımdan Zahid Xəlil ömrünün müdrik çağında da tez-tez təhsil ocaqlarında, kitabxanalarda olur və sevimli oxucuları ilə görüşür. O, 13 il F.Köçərli adına Respublika Uşaq Kitabxanasından ayda bir dəfə yayımlanan "Çıraq" verlişinin aparıcısı olub, bir çox şair və yazıçılarımızın yaradıcılığı ilə

uşaqları yaxından tanış edib. Zahid müəllim 2011-ci ildən başlayaraq Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə kitabxanamız tərəfindən keçirilən "Kitab karvanı: İpək yolu ilə" adlı möhtəşəm tədbirlərdə yaxından iştirak edib, oxucuları ilə görüşüb və yeni əsərləri ilə oxucularını sevindirib. F. Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirləri, görüşləri onsuz təsəvvür etmək çətindir.

## II BÖLMƏ

### Yubiley tədbirlərinin keçirilməsi

Zahid Xəlil öz poetik dünyası ilə daim üslubunu sabitləşdirən, təkrarolunmaz obrazlar yaradan şairdir. Onun ədəbi əsərləri rus, litva, latış, eston, moldav, ukrayna, gürcü, özbək, qazax, türkmən, eləcə də alman, fin, yuqoslav, holland dillərinə tərcümə olunub. Uşaqlar üçün yazdığı şeir və hekayələr təkcə Rusiyanın uşaq mətbuatında deyil, eyni zamanda böyük tirayla nəşr edilən "Literaturnaya qazeta" və "Rabotnitsa" kimi qəzet və jurnallarda da müntəzəm dərc edilib. Fərəhlidir ki, Zahid Xəlil "Kölgələr" və "Limonad içməyin" hekayələrinə görə "Literaturnaya qazeta"nın "Zolotoy telyonok" mükafatına layiq görülüb. Uşaq ədəbiyyatımızın köklərini arayıb-axtarmaqda, bu günlə bağlı problemləri araşdırmaq yolunda böyük əmək sərf edən Zahid Xəlilin 2017-ci ilin martında 75 yaşı tamam olur. Bu münasibətlə respublikamızın bir çox təhsil ocaqlarında, məktəblərdə, kitabxanalarda, bir sıra mədəniyyət ocaqlarında silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulub. Onun yaradıcılığının geniş təbliği üçün kitabxanalarda ilk növbədə kitab sərgisinin təşkili vacibdir. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: "Z.Xəlil-75", "Uşaqların sevimli yazıçısı", "Uşaqların yaxın dostu", "Z.Xəlil Azərbaycanın görkəmli müasir uşaq yazıçılarından biri kimi" və s.

“Z. Xəlil-75” adlı sərginin nümunəsini təqdim edirik:



























1. **Başlıq. Məsələn; "Z.Xəlil-75"**
2. **Z.Xəlilin portreti.**
3. **Görkəmli insanlar Z.Xəlil yaradıcılığı haqqında söylədikləri - sitatlar.**
4. **Seçilmiş əsərləri (1-6 cild)**
5. **Kitablarının nümayişi.**
6. **Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası.**
7. **Şeir parçası.**
   **Hanı papaq altda yatan oğullar?**
   **Təbriz həbs olunub bir gövhər kimi!**
   **Təbrizdən Bakıya uzanan yollar,**
   **Kəsilir yarımçıq ömürlər kimi...**

**Görkəmli insanların Zahid Xəlilin yaradıcılığı haqqında söylədikləri**

**1.** Zahid Xəlil uşaq ədəbiyyatımızın ən yaxşı təbliğatçısı, görkəmli uşaq ədəbiyyatı mütəxəssisidir.

*Hikmət Ziya,*
*şair, tərçüməçi*

**2.** Zahid Xəlilin uşaq ədəbiyyatına gətirdiyi yeniliklər bugünkü Azərbaycan ədəbiyyatına xas olan bir xüsusiyyətdir.

*İqor Motyaşov,*
*tədqiqatçı*

**3.** Zahid Xəlil həyatını bütünlükdə uşaq ədəbiyyatına həsr edibdir.

***Rafiq Yusifoğlu,***
***şair, ədəbiyyatşünas***

**4.** Zahid Xəlilin nağıllarının gücü onun hüdudsuz fantaziyasındadır. Bu fantaziyalar uşaqların təxəllüyünü, yaradıcı düşüncəsini inkişaf etdirən gözəl sənət nümunələridir.

***Zemfira Tahirli,***
***filologiya elmləri namizədi***

**5.** Azərbaycan uşaq nəsrinin inkişafında öz yaradıcılıq axtarışları ilə seçilən Zahid Xəlil uşaq dünyasının, uşaqların xəyal aləminin bədii inikasını yaratmaq üçün poeziyanın sehrli və sirli boyalarından məharətlə istifadə etmiş, uşaqların estetik-bədii zövqünü formalaşdırmaqdan ötrü bütün imkanlardan ustalıqla yararlanmışdır.

***Füzuli Əsgərli,***
***filologiya elmləri namizədi***

**6.** Ədəbiyyatımızın görkəmli nümayəndəsi, türkün şair oğlu Zahid Xəlili Tanrı qorusun!

***Əzizxan Tanvıverdi,***
***filologiya elmləri doktoru, professor***

Zahid Xəlil yaradıcılığı ilə uşaqları daha yaxından tanış etmək üçün kitabxanaçı sərgi qarşısında şairin kitabları haqqında söhbətlər aparmalıdır. Məsələn, söhbətə belə başlamaq olar:

- Zahid Xəlil Azərbaycan poeziyasında görkəmli yer tutan şairlərimizdəndir. O, yaradıcılığının əsas hissəsini uşaqlar üçün şeir, nağıl, poema yazmağa həsr edib. Uşaqların sevə-

sevə oxuduğu “Torağaylar oxuyur”, “Ballıca”, “Çıraq nənənin nağılları” və s. şeir və nağıllar Zahid Xəlil yaradıcılığının bəhrəsidir. Onun şeirlərinin əksəriyyəti uşaqları əməyə məhəbbət, həyatın mənasını başa düşmək, Vətəni sevmək, doğru danışmaq və s. bu kimi gözəl hisslər ruhunda tərbiyə etməyə xidmət edir. Z. Xəlilin uşaq şeirləri öz yığcamlığı ilə diqqəti cəlb edir. Az sözlə bütöv fikri ifadə etmək bacarığına malik olan şair bu üsuldan tez-tez istifadə etməyə çalışır, öz yığcamlıq prinsipinə sadiq qalır.

Əziz uşaqlar, kitabxanamızda sizin sevimli şairiniz Zahid Xəlilin gözəl tərtibatı olan maraqlı kitabları çoxdur. Gəlin birlikdə bu kitabları oxuyaq ki, dünyaya, vətənə, körpələrə sevgimiz daha da artsın. İnanırıq ki, sizdən sonra gələn bacı və qardaşlarınız da onun şeir və nağıllarını həvəslə oxuyub, öyrənəcəklər.

Zahid Xəlilin yaradıcılığını yaxından izləmək üçün keçiriləcək tədbirlərdən biri də kiçik yaşlı oxucular üçün şeirlərin ucadan oxunmasıdır. Ucadan oxu uşaqların ən çox sevdiyi tədbirlərdən biridir. Şeirlərin ucadan oxunması uşaqların diqqətini daha çox cəlb edir, onların şeiri duymaq və başa düşmək qabiliyyətini daha da artırır. Məsələn, şairin “Kəklik”, “Bülbül”, “Qırqovul”, “Hacıleylək”, “Cüllüt”, “Ulduzlar”, “Cəh-cəh”, “Dilarənin danası”, “Günəş və nar” və s. kimi şeirlərinin ucadan oxusunu vermək olar: “Dovşan və canavar” şeirinin ucadan oxusunu nümunə kimi veririk:

Dovşan qurdu haqladı,
Quyruğundan saxladı.
Gəldi boz qoç, ağ qoyun,
Başladı min cür oyun.
Oynaqla ha oynaqla,
Çoban gəldi çomaqla.
Canavarı götürüb
Bir qazana basdılar.

Qoyun, keçi oynadı
Meşəyə düşdü haray.
Caldılar çağırdılar.
Vay, dədəm vay, nənəm vay,
Bu boyda yalan olar?!

Şeirin ucadan oxunmasından sonra uşaqlara aşağıdakı sualları vermək olar:

1. Uşaqlar "Dovşan və canavar" şeirində dovşan kimi tutmuşdu?
   Dovşan qurdu tutmuşdu.
2. Məclisə kimlər gəldi?
   Məclisə dovşanın yoldaşları - boz qoçla, ağ qoyun.
3. Çoban gəldi nə etdi?
   Çoban canavarı götürüb qazana basdı.
4. Uşaqlar, siz belə bir hadisəyə inanırsınız?
   Xeyr, biz buna inanmırıq.

Görkəmli şair Z. Xəlilin yubileyi ilə bağlı kitabxananın nağıl otağında "Nağıl saat"nın təşkili də məqsədəuyğundur. "Nağıl saatı"nın keçirilməsində məqsəd uşaqları Z. Xəlilin hekayə, nağıl, şeir, poemaları ilə yaxından tanış etməkdir. Tədbir zamanı kitabxanaçı Z. Xəlilin həyat və yaradıcılığı barədə məlumat verdikdən sonra, uşaqlar cizgi filminə tamaşa edirlər. Cizgi filmi bitəndən sonra onlar Zahid Xəlilin "Lampaçıq" adlı komediyasından bir parçaya qulaq asırlar.

**Kitabxanaçı:** - Hələ səhnə açılmayıb. Yüngül bir musiqi çalınır. Musiqinin ahənginə uyğun olaraq Ütü atıla-atıla gəlir. O, balaca dostlarına baxıb nəyisə xatırlamağa çalışır. O balaca dostlarından soruşur.

**Ütü:** - Dayan, dayan, deyəsən, axı, siz də Lampacıqla tanış olmağa gəlmisiniz? Hə? Adam az qalır başını itirsin. Dünyanın hər tərəfindən Günəşin bu gözəl nəvəsinin görüşünə axışıb gəlirlər. Bax, həmin çılçırağın adı Çıraq nənədir. O həmişə doğru danışmağına görə daim işıq saçır. Adamlar fikirləşiblər ki, bir halda ki, Çıraq nənə belə işıq saçır, onda gəlin onu evin lap

yuxarı başında əyləşdirək. Axı bizim hər birimiz, nə zamansa, hərdən bir yalan danışırıq. Amma Çıraq nənənin dilinə ömründə yalan gəlməyib. Evin ortasında, həm də hamımızın başının üstündə əyləşdiyinə görə o, əhvalatıarın hamısını görə bilir. Əlbəttdə, bizim bu evdə bir-birindən maraqlı işlər baş verir və bu əhvalatlara tamaşa eləməyinə dəyər. Gəlin tanışlığı elə mənim burnumdan başlayaq. Heç bilirsiniz mənim burnum niyə belə sivridir? Hə? Bilmirsiniz? Ay səni, gör nəyi bilmirsiniz. Mənim bu qəşəng burnum ona görə sivridir ki, onu mən hara gəldi soxa bilirəm. Məsələn, qonşu otaqda Lampacığın nə fikirləşdiyini bilmək istəyirəmsə bu qəşəng burnum gedib dirənir düz Lampacığın balaca stoluna və başlayıram onun işlərinə tamaşa eləməyə. Siz bilən bəs mənim üzüm niyə belə sığallıdır? İndi deyəcəksiz ki, Ütünün üzü sığallı olar də! Doğrudur. Amma onun səbəbi var. Mən eşitdiyim hər hansı bir sözü sığallayıb danışmasam bağrım çatlayar. Ona görə də belə sığallı və qəşəngəm.

*(Musiqi çalınır).* Fırça atıla-atıla gəlir.

**Fırça:** - Usta Həsən, qazanı kəsən,
Usta Həsən, qazanı kəsən!

Ütü salam, sən burdasan, mən də bayaqdan deyirəm bu qız necə oldu. Bilirsən bu saat tamaşa başlayacaq? Bir keyf olacaq gəl görəsən. Usta Həsən bayaqdan gözdə-qulaqdadı. Bütün alətlərini hazırlayıb 125 çəkic, 198 mişar və bu kimi başqa alətləri yığıb ortalığa ki, Qırmızıgöz çağıran kimi getsin onun köməyinə. Əlindən güclə qurtardım. Deyir, ay Fırça, daha köhnəlmisən, gəl mənim anbarıma, bir şeyə yarayarsan.

**Ütü: -** Susssss! Deyəsən kimsə gəlir.

*(Atəşböcəyi səhnəyə daxil olur).*

**Ütü: -** Nə qəşəng oğlandı!

**Atəşböcəyi:** - Bağışlayın, siz deyə bilməzsiniz ki, Lampacıq harda yaşayır?

**Ütü:** - Lampacıq. Bax orda yaşayır. Düz altı saat yirmi səkkiz dəqiqə on iki saniyədir ki, güzgünün qabağında saçlarını düzəldir. Bircə saat da gözləsəniz işini qurtarar.
**Atəşböcəyi:** - (*Uzun bir fit çalır*) Yaxşı, deyə bilməzsinizmi o nə üçün bu qədər əlləşir? Məğər saçlarını düzəltməyə beş altı-dəqiqə bəs eləmir?
**Ütü:** - Yox canım, siz nə danışırsınız? Məgər Lampacıq hər adamın tayıdır ki, saçını beş-altı dəqiqəyə düzəldə?! Bir də ki, onun əlindən başqa bir iş gəlmir. Hə, onu da bilin ki, Qırmızıgöz qonaq gələcək. Tanıyırsan Qırmızıgözü! Dörd yol ayrıcında dayanan işıqforun qırmızıgözünü deyirəm. Bir azdan xüsusi maşında gələcək, nə gələcək. Sən bilən Lampacıq belə bir adamın görüşünə tələm-tələsik hazırlaşa bilərmi"!
**Atəşböcəyi:** - Mən Qırmızıgöz-zad tanımıram. Lampacığı isə yuxumda görmüşəm. Görmüşəm ki, haradasa bir stolun üstündə qəşəng bir Lampacıq əyləşib. Bu qız o qədər gözəldir ki, işıq saçır. Elə yuxudan duran kimi and içdim ki, hökmən həmin o qızı tapmalı və onunla dost olmalıyam.
**Fırça:** - Mən Lampacığın diş fırçasıyam. Gecə-gündüz onun dişinin dibini bərk dişlədiyim üçün o da məni atmaq fikrinə düşdü. Yaxsı ki, sonra bu zarafatı eləmədim. Yoxsa yəqin ki, indi usta Həsənin anbarında çürüyürdüm.
**Ütü:** - Mən də onun ütüsüyəm. O parlaq paltarlarını axşam-səhər ütüləyirəm ki, görənin ağlı başından çıxsın. Bax Lampacığın sarayına gedən yol budur. Buyurun.

*(Atəşböcəyi gedir)*

**Ütü:** - Ay Allah, nə gözəl oğlandır. (*Atəşböcəyi kimi baş əyir və onu yamsılayır)* Mən Lampacığı yuxuda görmüşəm. Görən kimi də and içmişəm ki, onunla dost olam. Amma, ölmüş, əla oğlandır. Bax beləsi ilə dost olmağına dəyər.
*( Bu zaman səhnənin bir küncündə Siçan bəy görünür. Onun yanında Siçan əsgərlər dayanıblar. Siçan əsgərlərin qədim əsgərləri xatırladan geyimləri və dəmir dəbilqələri var. Ütü onları görüb bərkdən qışqırır)*

**Ütü:** - Siz kimsiniz belə?
*(Siçan bəy bir qədər qorxub geri çəkilir. Şlyapasını çıxarıb baş əyir. Arxada o biri Siçanlar ciyildəşir.)*
**Siçan bəy:** - Mən Siçanlar sərkərdəsi Uzunquyruq Siçan bəyəm. Babamın uzun və yaraşıqlı quyruğuna and içirəm ki, Lampacıqla həqiqi dost olmağa gəlmişik.
**Ütü:** - (*Uğunub gedir)* Bircə siz çatmırsınız. Lampacığın o qədər vaxtı hardaydı ki, sənin bu qılquyruq qoşununla dostluq edəydi. Yaxşısı budur cəhənnəm olun!
**Siçan bəy:** - (*qoşununa tərəf çevrilir*).

Cəhənnəm olmağa hazırlaş.

*(Siçanlar əsgəri qaydaya düzülür)* Cəhənnəm olmağa başla! Bir, iki, bir, iki. (*Onlar gəldikləri kimi də gedirlər*)
**Ütü:** - Təcili bir elan yazıb asmaq lazımdır: "Siçanların bu evə girməsi qadagandır! Yoxsa hər yoldan ötən Lampacıqla dost olmaq xəyalına düşür. (*Sonra Siçan bəyi yamsılayır*: Cəhənnəm olmağa hazırlaş: Bir, iki, bir, iki! *Beləcə də səhnədən çıxır*).

Azərbaycan uşaq nəsrinin inkişafında öz yaradıcılıq axtarışları ilə seçilən sevimli şairimiz Z. Xəlilin 75 illik yubileyi ilə bağlı kitab icmalının keçirilməsi də vacibdir. Bu məqsədlə şairin 2008-ci ildə "Bakı" nəşriyyatı tərəfindən nəşr olunan 6 cildlik "Seçilmiş əsərləri"nin icmalını keçirmək olar.

"Məzmun gözəlliyi, Dil zənginliyi" adlı tədbirin açılışında kitabxanaçı hər bir cild haqqında ətraflı məlumat verir:

- Zahid Xəlil Azərbaycan uşaq ədəbiyyatını dünya səviyyəsinə qaldıran görkəmli sənətkardır. Onun nəsr əsərləri N.X. Andersen, C.Rodari, Qrimm qardaşları, E.S. Tomson, R.Kiplinq sənəti ilə səsləşən gözəl nümunələrdir.

Uşaqlar üçün yazılan hər bir əsər balacaların, yeniyetmələrin, o cümlədən gənclərin dünyagörüşünün formalaşmasında, maraq dairəsinin genişlənməsində, əxlaqi və mənəvi tərbiyəsində, xarakterlərin müsbət istiqamətdə

inkişafında və ən nəhayət, bədii zövqlərin cilalanmasında mühüm rol oynayır.

Zahid Xəlilin "Seçilmiş əsərləri"ndə uşaq şeirləri ilə yanaşı, rus şairlərindən seçmələr, "Bunlarda ki nağıldı", "Gənclər üçün pyeslər", "Uşaq ədəbiyyatının ümumi məsələləri", "Folklor və klassik uşaq ədəbiyyatımızın problemləri", "Müasir dövr uşaq ədəbiyyatının aktual məsələləri" və digər bölmələr yer alır...

Yubiley münasibətilə təşkil olunası tədbirlərdən biri də orta və böyük yaş qrup oxucular arasında keçirilən ədəbi-bədii gecədir. Ədəbi-bədii gecəyə kitabxanaçı bir ay qabaqcadan hazırlaşmalıdır. Bu tədbirin keçirilməsində əsas məqsəd oxucuları şairin həyat və yaradıcılığı ilə yaxından tanış etməkdir. Tədbirə şairin qələm yoldaşları, ədəbiyyat müəllimləri, məktəblilər dəvət olunmalıdır. Ədəbi-bədii gecəyə şairin özünü də dəvət etmək yerinə düşər.

Tədbir iki hissədən ibarət olmalıdır. Birinci hissədə şairin həyat və yaradıcılığı haqqında çıxışlar olmalı, qonaqlara söz verilməlidir. İkinci hissədə Zahid Xəlilin uşaqlar haqqında yazdığı şeirlər səslənməli, nağıl və povestlərdən səhnəciklər göstərilməlidir. Aşağıda **"Uşaqların yaxın dostu - Zahid Xəlil"** adlı tədbirin ssenarisini nümunə üçün veririk.

### "Uşaqların yaxın dostu – Zahid Xəlil"
### (ssenari)

***"Balaca kibritlə böyük ocaqlar yandırmaq olar, balaca açarla iri darvazaları açmaq olar, balaca uşaq gözü ilə də bütün dünyanı görmək olar" adlı başlıq divardan asılır. Səhnə çiçəklərlə bəzədilir. Çıxış üçün söz ilk öncə kitabxananın direktoruna verilir. Çıxışdan sonra aparıcılar səhnəyə daxil olur.***

**I aparıcı:** - Əziz dostlar və qonaqlar! Sizi salamlayır, tədbirə xoş gəlmisiniz deyirik! Bu baharda həm böyüklərin, həm də uşaqların sevimli şairi Zahid Xəlilin 75 yaşı tamam olur. Bu münasibətlə sevimli şairimizi səmimi qəlbdən təbrik edir, ona cansağlığı arzulayırıq. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, əsərləri dünyanın bir sıra dillərinə tərcümə olunan Zahid Xəlilin uşaq ədəbiyyatının tədqiqində və təbliğində də böyük xidmətləri var. O, yaradıcılığının böyük bir hissəsini uşaqlara həsr edib, yəni balaca uşaqların böyük dünyasına baş vurub, uşaq sevincini, uşaq kədərini onlarla bir yerdə yaşayıb. Zahid Xəlil gözəl əsərlər yazmaqla yanaşı, neçə illər Azərbaycan Dövlət Televiziyasında uşaq və yeniyetmələr üçün "Çıraq", "Sərbəst düşüncə studiyası" verilişlərini araya-ərsəyə gətirib. Bu verilişlərdə şair uşaqları nəinki Azərbaycan, eləcə də dünya xalqlarının məşhur uşaq yazıçıları və onların əsərləri ilə tanış edib, balacalara imkan yaradıb ki, öz fikirlərini sərbəst şəkildə ifadə etsinlər.

***Təbiətə uyğun dekorativ ağaclar, kollar, güllər və s. ilə bəzədilmiş səhnəyə kiçik yaşlı uşaqlar Fil, Kirpi, Arı, Qartal, Dələ obrazlarında sənnəyə daxil olurlar.***

**Fil:** - Zooparkda fil gördüm,
Elə bildim qayadı.
Xortumu nə yekədi,
Ayaqları payadı.

**Kirpi:** - Meşədə kirpi gördüm,
Dedim yəqin ayının
İynəsi, sancağıdı.
Ya da kolluqda qalan
Bir çoban papağıdı.

**Arı:** - Vızıldayıb çəmənləri
Gəzir bir-bir arılar.
Çiçəklərin qulağına

Nəğmə deyir arılar.

**Qartal:** - Şappıldadıb qanadını
Baxdı göyə,
Qayadan bir qartal uçdu.
Elə bildim bu qayanın
Bir parçası qalxdı göyə.

**Dələ:** - Niyə xırdasan belə,
Ay dələ?!
Amma quyruğun
Yumşaq bir şələ.
Qaçıb çıxırsan
Budaqların başına.
Gözlə, birdən düşərsən
Uşaqların başına!

**II aparıcı:** - Zahid Xəlilin yaradıcılıq imkanları genişdir. Onun 1987-ci ildə Moskvada çap olunan “Salam Cırtdan” kitabı “İlin ən yaxşı uşaq kitabı” müsabiqəsinin qalibi olub, hekayələri “Literaturnaya qazeta”nın “Zalotoy telyonok” və “Qızıl qələm” mükafatlarına layiq görülüb. Zahid Xəlilin yazdığı kitablar təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində yayılıb. Alman, ingilis, çex, polyak, ərəb dillərində çap olunan əsərləri uşaqlar maraqla oxuyur, şeirlərini əzbərləyir, ondan yeni-yeni nağıl və şeirlər gözləyirlər. Çoxlu şeir və nağıllar yazan Zahid Xəlilin araya-ərsəyə gətirdiyi hər bir şeir və nağılları elə bil ki, şirin bir dünyadan uçub gəlir.

Dimdiyi var iynə kimi,
Gözləri var düymə kimi.
Ayaqları bapbalaca,
Qonar hərdən bir ağaca,
Nəğmə deyər: bup-bup, bup-bup,
Meşəmizdə nə var, nə yox.

**I aparıcı:** - Zahid Xəlilin yaradıcılığında şeir-yanıltmacların da xüsusi yeri var. Bu yanıltmaclar öz orginallığı ilə diqqəti daha çox cəlb edir, həmçinin kiçik yaşlı uşaqların düzgün tələffüz vərdişlərinin formalaşmasına və nitq inkişafının rəvanlığına əvəzsiz xidmət göstərir. Belə yanıltmaclardan “Tutu”, “Aşır”, “At” və s. misal göstərmək olar.

On iki yaşlı Tutu,
Çıxıb çırpırdı tutu.
Bir quş isə uzaqdan
Hey oxurdu: Tu-tu.

**II aparıcı:** Zahid Xəlilin bədii yaradıcılığı respublikamızın sərhədlərindən kənara çıxdıqca ədəbi əlaqələri daha da genişlənir. Müxtəlif xalqlarının qələm sahibləri, şair və yazıçıları, tərcüməçi və tənqidçiləri onun yaradıcılıq laborotoriyasına daha dərindən nüfuz etməyə çalışırlar. Z. Xəlilin bədii yaradıcılığına yaxından bələd olan rus tənqidçisi İ.Motyaşov belə yazır: ”Zahid Xəlil ona görə diqqəti cəlb edir ki, o, təkcə ədəbiyyat tarixçisi və tənqidçisi deyil, hər şeydən əvvəl, yaxşı uşaq yazıçısıdır. Zahid Xəlilin uşaq ədəbiyyatına gəlmə səbəbi onun yaradıcılıq axtarışları və sənətdə novatorluğu ilə bağlıdır, bu isə müasir Azərbaycan uşaq ədəbiyyatında daha tipik səslənir”.

**I aparıcı:** - Yazıçının azyaşlı oxucular üçün yazdığı “Cırtdanla Azmanın yeni sərgüzəştləri” povestindəki hadisələr uşaqların marağına səbəb olmuş və sevilmişdir.

Əziz uşaqlar, gəlin bu nağılı biz də xatırlayaq. Nağıllarda deyildiyi kimi, biri vardı, biri yoxdu, Zahid babanın nağılında bir Cırtdan, bir də Azman var idi. Cırtdan bədəncə bapbalaca, Azman isə yekəpər bir uşaqdır. Cırtdan bədəncə balaca olmasına baxmayaraq, qəlbi böyük amallarla çırpınır. O, həm ağıllı, xeyirxah və həm də çox qoçaqdır. O, dara düşən quşları, heyvanları həmişə xilas edir, mərdlik göstərir. Bu balaca adamcığaz ağlı ilə özündən çox böyük olan Azmana həmişə

qalib gəlir. Nağılda nəhəngliyi ilə hamını heyrətə salan Azman da maraqlı obraz kimi yadda qalır. Cirtdan Azmanı heç xoşlamır, ona görə ki o, çox yatağan və tənbəldir. Həm də onun nağılları o qədər uzundur ki, yazıq uşaqlar həmin nağıllara qulaq asanda üç gün, üç gecə yatmırlar. Uşaqların çoxu yuxusuzluq xəstəliyinə tutulub və bu da Cırtdanı çox qəzəbləndirir. Günlərin bir günü Azman belə qərara gəlir ki, işini-gücünü buraxıb Cırtdanı axtarıb tapsın, bu balaca zəvzəyi lap öləné kimi döysün. Azman da ki, Cırtdanın bu hərəkətlərindən lap təngə gəlir. Buna baxmayaraq, hər gecə Cırtdan Azmanın cibində yatır. Onun cibində hər şey var. Futbol topundan tutmuş velosiped təkərinə qədər hər şey var. Hərdən Cırtdan fürsət tapıb Azmanın qulaqlarını da dişləyə bilir. Və belə cibdə Cırtdanı tapmaqmı olar?!

***(“Cırtdanla Azmanın yeni sərgüzəştləri” povestindən “Azmanın Cırtdanı tutması” hissəsini kiçik yaşlı uşaqların ifasında izləyək)***

**II aparıcı: -** Beləliklə, bax bu iki qəhrəman hələ də Zahid babanın kitablarında yaşamaqdadırlar. İndi yəqin ki, Azmanla Cırtdanın yaşı mini keçib, lakin hələ də Azmanla Cırtdan uşaqların ən çox sevdiyi qəhrəmanlardır. Əziz uşaqlar yəqin sizin üçün də maraqlı olar ki, şairin qələmə aldığı “Cırtdanla Azmanın yeni sərgüzəştləri” adlı povestindəki “Cırtdan” sözü hansı mənanı verir. Nağılda “Cırtdan” sözü “cırt” yəni od, qığılcım kimi “qırağa atılan” mənanı verir. Yəni, şair nağılda qeyd etmək istəyir ki, Cırtdan od, qığılcım kimidir, heç nədən qorxmur, ən çətin məqamlarda belə hər şeyin öhdəsindən gələ bilir. Zahid baba bu nağılda uşaqlara elə bir hiss aşılayır ki, uşağın yaşının azlığı, körpəliyi onun böyük işlər görməsinə mane ola bilməz. Əgər bu gün o, böyük, xeyirxah işlər görə bilməsə də, heç olmazsa, onu arzulayar və böyüyəndə həmin keyfiyyətləri özünün idealına çevirər.

İnanırıq ki, Zahid Xəlil hələ neçə illər bundan sonra da uşaqlar üçün gözəl, maraqlı şeirlər, nağıllar, tapmacalar yazacaq. Onun nağılları o qədər romantiq və zəngindir ki, uşaqlar bu nağılları oxumağa başladılarmı, daha ondan ayrıla bilmirlər. Nağıllarda hadisələr bir-birini elə maraqlı formada əvəz edir ki, uşaqlar nağıl bitəndən sonra da kitabı əllərindən yerə qoymaq istəmirlər.

***Orta yaş qrup oxucuların ifasında "Yeddirəngli muncuq" şeirindən bir parçaya qulaq asaq. Uşaqlar Böcək və Günəş geyimində səhnəyə daxil olurlar.***

**Günəş:** - Ağlama, böcək,
Bir danış görək,
Nə olub axı?
Yaşıl gözündən
Niyə yaş axır?

**Böcək:** - İtirdim göy çəməndə
Anamın muncuğunu.
Hələ batma, ay Günəş,
Axtarıb tapım onu.

**Günəş:** - Axı batmaq vaxtıdır,
Mən dayana bilmirəm.
Bu gün lap yorulmuşam
Daha yana bilmirəm!

**Böcək:** - Batma, bircə saat da
Gəl buraxma tək məni.
O muncuğu tapmasam
Anam döyəcək məni.
Nə yaman qızarmısan
Qan tökülür üzündən?!

**Günəş:** - Görürsən, axşam düşür?!
Getməliyəm daha mən.
Kəs telimin ucundan
Paltar geyin tacımdan.

Sən də parlaq olarsan
Gecə işıq salarsan.
Bir azdan günəş batdı
Dağın dalında yatdı.

**Aparıcı:** - Günəşin şüasından
Paltar geyindi böcək.
Elə ki axşam düşdü
İşıldadı çıraq tək.

Uçdu çəmənə, dağa,
Başladı axtarmağa.
Yumru, qəşəng muncuğu
O yeddi rəng muncuğu.

Birdən onun gözünə
Qəfildən düşdü işıq.
Dedi: -Balam, deyəsən
Lap doyunca yatmışıq?!

Elə bildi səhərdi
İstədi dura yerdən.
Qulağının dibində
Kimsə qışqırdı birdən:

-Tapmışam, mən tapmışam
Qırmızırəng muncuğu!
Qaraxallı muncuğu
O yeddirəng muncuğu!

Sevindi Atəşböcək
Silkələndi gül, çiçək.

**I aparıcı:** - Zahid Xəlil kitablarının birində balacalar haqqında belə yazır: “Balaca kibritlə böyük ocaqlar yandırmaq olar, balaca açarla iri darvazaları açmaq olar, balaca uşaq gözü ilə də bütün dünyanı görmək olar.” Balaca uşaq gözü ilə bütün dünyanı görən və Cırtdanın, Çınqının, Aygəzin, Dəmirdabanın, Ballıcanın, Şeşəbığın, Orxanın simasında dünyanın sirlərini uşağa başa salan yazıçının fantaziyası tükənməzdir. Zahid Xəlil bütün yaradıcılığı boyu kiçik açarla böyük qapılar açmağa üstünlük verib, dünyaya heyran uşaq gözüylə baxıb və bu yolda uğurlar qazanıb. Zahid Xəlilin nağıllarının gücü onun hüdudsuz fantaziyasındadır. Bu fantaziyalar uşaqların təxəllüyünü, yaradıcı düşüncəsini inkişaf etdirən gözəl sənət nümunələridir. Yetmiş beş yaşı qeyd edilən Zahid Xəlil bu gün də yorulmadan, gənclik tərafətilə yazıb-yaradır, milli uşaq ədəbiyyatının inkişafı naminə problemli məsələlərin tədqiqatını aparır, yeni, uşaqları cəlb edəcək mövzular üzərində düşünür. Şair yazır: “İndi uşaqlar üçün hekayələr yazıram. Ancaq dərslik hekayələri. Bu mənim həyatımda yeni bir mərhələdir. Heç vaxt dərk etməmişəm ki, məktəb üçün xüsusi hekayələr lazımdır. İndi çalışıram bu şərtlərə cavab verən əsərlər yazım və köhnə əsərlərimi də bu şərtlərə uyğun işləyirəm.”
**II aparıcı: -** Bəli, ömrünün kamillik dövrünü yaşayan Zahid Xəlil indi yaradıcılığının çiçəklənmə dövrünü yaşayır. Gəlin, yubiley münasıbətilə Zahid Xəlili təbrik edək, ona cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayaq
Tədbirin sonunda “Kitabların anası” adlı şeiri oxucuların ifasında dinləyək.

**I oxucu:** - “Əlifba” kitabıdır,
Kitabların anası.
Hər hərf bir göyərçin,

Hər hərf su sonası.

Nə çox səs var dünyada
Adam səsi, quş səsi.
Təbiətin dili var,
Düşündürür hər kəsi.

Səslərdən söz yaranır,
Sözdən gözəl cümlələr.
Sözə “qızıl”deyibdi,
Söz qədrini bilənlər.

Böcəyin də səsi var,
Küləyin də səsi var,
Hər səsin də yazıda
Bir cür işarəsi var.

**II oxucu:** - Səs yazılsa vərəqə
Çonüb hərf olacaq.
Qanad çalıb havada
Dəftərimə dolacaq.

“A” da “ana”deyirəm,
“V” da “vətən” kəlməsi.
Vətən ulu babamdır,
Vətən atamın səsi.

“Əlifba” xəzinədir,
Onda min inci yatır.
Hər şirin kəlməsində,
Uşaq sevinci yatır.

Gəlin heç tələsməyək,
Öyrənək “Əlifba”nı.

Bu dünyada onun tək
Əziz bir kitab hanı?!

Tədbir sozləri Zahid Xəlilin, musiqisi Rəşid Şəfəqə aid olan **Novruz gəlib, yaz gəlib!..** adlı musiqi ilə bitir.

Bizim bağçamıza bir çəmən düşüb,
Sürüşüb baharın çiynindən düşüb.
Gündüzlər nə qədər quzu var orda,
Otlayır, mələyir quzular orda.

**Nəqərat:**
Novruz gəlib, yaz gəlib,
Söhbət gəlib, saz gəlib.
Bülbüllər cəh-cəh vurur,
Çöllərə avaz gəlib.

Yaşıl çəmənlikdə qönçələr gülür,
Evlərdə bəzəkli xonçalar gülür.
Hər yanda tonqallar göyə yüksəlib,
Noğullu, qoğallı bir bayram gəlib!

**Nəqərat:**
Novruz gəlib, yaz gəlib,
Söhbət gəlib, saz gəlib.
Bülbüllər cəh-cəh vurur,
Çöllərə avaz gəlib.

Şəkərbura ətri, paxlava ətri
Qonaq gəlsin kimin istəyir xətri
Göylərə qaldırıb dağlar çəməni

Çəmən özü boyda yaşıl səməni.

**Nəqərat**

Novruz gəlib, yaz gəlib,
Söhbət gəlib, saz gəlib.
Bülbüllər cəh-cəh vurur,
Çöllərə avaz gəlib.

## S on

***Zahid Xəlil-75***

Seçilmiş əsərləri. I cild : uşaqlar üçün şeirlər. - Bakı : ADPU, 2008. - 388 s.

Seçilmiş əsərləri. II cild : kiçik nağıllar və hekayələr. - Bakı : ADPU, 2008. - 414 s. : rəngli foto.

Seçilmiş əsərləri. III cild : uşaqlar üçün nağıl - povestlər. - Bakı : ADPU, 2008. - 408 s.

Seçilmiş əsərləri. IV cild : nağıllar. - Bakı : ADPU, 2009. - 405 s.
: rəngli foto.

Seçilmiş əsərləri. V cild : gənclər üçün şeirlər, pyeslər, müsahibələr və xatirələr : ADPU, 2009. - 431 s. : rəngli foto.

Seçilmiş əsərləri. VI cild. - Bakı : ADPU, 2008. - 414 s. : rəngli foto.

Çınqı : nağıl. - Bakı : SkyG, 2016. - 48 s. : ill.

Dünyanın ən balaca nağılları : nağıl. - Bakı : Nağıl evi, 2002. - 150 s.

Günəşi qopartmaq istəyən  ayılar. - Bakı : Elm və Təhsil, 2013. - 24 s. : rəngli il.

Qızlar şeir oxuyur sevgi yaşında : poeziya. - Bakı : ADPU-nun mətbəəsi, 2007. - 80 s. : portr.

Orxan və dostları : povest. - Bakı : ADPU nəşriyyatı, 2004. - 168 s.

Uşaq ədəbiyyatı : dərslik. - Bakı : ADPU, 2011. - 498 s.

Yumru yumaq və Qumru : 1-ci sinif şagirdləri üçün oxuyub anlama mətni və test tapşırıqları. - Bakı : ADPU-nun mətbəəsi,

2011. - 20 s. : il.

***Kiril qrafikası ilə***

Ballıca və fındıqburun, dəmirdaban, şeşəbığ haqqında nağıllar. - Bakı : Gənclik, 1981. - 248,  [1] s.

Cırtdanla Azmanın yeni sərgüzəşləri : Povestlar və hekayələr. - Bakı : Gənclik, 1986. - 340 s. : şək.

Çıraq nənənin nağılları. - Bakı : Gənclik, 1983. - 232 [1] s. : şək.

Quşlar quşlar : şeirlər. - Bakı : İşıq, 1977. - 30 s.

Mavi dəniz üzərində. - Bakı : Gənclik, 1990. - 36 s.

Mən rəngləri tanıyıram : kiçik yaşlı uşaqlar üçün şeirlər, yanıltmaclar və nağıllar . - Bakı : Gənclik, 1972. - 98 s.

Odlar yurdunun paytaxtı : uşaqlar üçün kiçik hekayələr. - Bakı : Gənclik, 1992. - 48 s. : şək.

Torağayqlar oxuyur : kiçik yaşlı uşaqlar üçün şeirlər. - Bakı : Gənclik, 1979. - 80 s.

# Zahid Xəlil -75
## “Uşaq ədəbiyyatımızın cəfakeşi”
## (metodik vəsait)

**Kompyuter yığımı**
**və dizayn:** *Konül Səmədzadə*

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 26
Çapa imzalanmışdır:14. 02 .2017
Tirajı:100
Pulsuz